# Salatın Əhmədlinin "Zəfər bizim zəfərimizdir" kitabı təqdim edildi



Oktyabrın 8-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda filologiya elmləri doktoru, tanınmış yazıçı-publisist Salatın Əhmədlinin "Zəfər bizim zəfərimizdir" adlı hekayələr kitabının təqdimatı oldu.

Kitaba daxil edilən hekayələr İkinci Qarabağ savaşı zamanı işğalçı orduya qarşı qəhrəmancasına döyüşmüş şanlı əsgərlərimizin dilindən qələmə alınıb. Bu hekayələr boyunca müharibənin ilk günü, sübh tezdən Kəlbəcərin Murovdağ yüksəklikləri uğrunda uğurlu əməliyyata başlayan yenilməz əsgərlərimizin hünərindən bəhs olunur. Kəlbəcər uğrunda gedən döyüşlərdə "Qələbə bayrağını bu torpaqlarda dalğalandığını görməyincə ölümə can verməram" düşüncəsiylə hünər göstərən oğullarımızın canlı obrazları təqdim edilir. Oxucu özünü Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Xocavənd, Şuşa uğrunda g\edən döyüşlərdə şanlı ordumuzun sıra nəfəri kimi hiss edir. Kəşfiyyatçı Sabir Cəfərovun, igid döyüşçülər Nəbi Quliyevin, Nadirin, Elmarın, Asifin, Səlimin, Zöhrabın, Zeynalın, Abdullanın, Samirin, Abbasın, Məsimin, Bərgüşadın cəbhə yoldaşına, silahdaşına dönür. O şanlı günlərin, şanlı qəhrəmanlığın qürurunu dönə-dönə yaşadır oxuculara. Olduqca sadə, səmimi, lakonik dildə qələmə alınıb bu hekayələr. Qəhrəmanlıq tariximizin hər anına dərin heyranlıq, əbədi ehtiram duyğuları aşılayır. Oxucuya böyük Zəfər sevinci, xoşbəxtliyi yaşadır.

Təqdimat mərasimini açan AYB katibi Səlim Babullaoğlu, tədbirin aparıcısı, filologiya elmləri doktoru Gülhani Pənah, sənətşünas Nuridə xanım, professorlar Eynulla Mədətli, İlham Pirməmmədov, telejurnalist Sitarə İsmayıl, şairlərdən Əli Rza Xələfli, Nəzakət, Sərvaz Hüseynoğlu, Güləmail, şəhid anası Rəna xanım və başqaları da Salatın xanımın "Zəfər bizim zəfərimizdir" kitabında yer alan hekayələrinin bədii məziyyətlərindən və missiyasından ətraflı bəhs etdilər.

Vurğulandı ki, S.Əhmədli çoxşaxəli yaradıcılıq imkanları olan qələm adamı, dilçi alimdir. Səmimiyyəti və xeyirxahlığı ilə hər kəsin doğmasıdır.

Tədbirin sonunda Salatın xanım yaradıcılıq planlarından söz açdı və təqdimatın keçirilməsinə yaratdığı şəraitə görə AYB rəhbərliyinə təşəkkürünü bildirdi.

*Aynur HƏTƏMOVA*